# Kitabın kiçiyi olmur

## Bugünkü və gələcək nəsillər üçün qiymətli hədiyyə




**Müdriklər kitabı bəşəriyyətin ən böyük kəşfi adlandırıblar. Haqlı da olublar. Çünki dünya binə olandan bütün tarixi hadisələr kitablara köçürülüb. Başər nəsli hələ kitabı kəşf etməmişdən əvvəl fikir və düşüncələrini müxtəlif rəmzlərlə daşların və qayaların üzərinə yazıb. Beləcə, ilk kitabələr yaranıb. Yaranıb ki, keçmişin olaylarını gələcəyə çatdırsın.**

Yenicə çapdan çıxmış kitabları ilk dəfə vərəqləyəndə xoş hisslər keçiririk. Xüsusilə nəfis tərtibatı ilə diqqəti cəlb edən miniatür kitabları... Bu nəşrlər zövqləri oxşayır, gözəl, nadir çap üsulu ilə hamını heyrətləndirir. Kiçik kitablarda böyük dünyanı görürük.

Bu günlər "Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri" adlı yeni miniatür kitab işıq üzü görmüşdür. Nəfis tərtibatla çap olunmuş kitab oxucular üçün qiymətli bir hədiyyədir. Kitabın ön səhifələrində qardaş ölkələrin aylı-ulduzlu bayraqları və ərazilərinin miqyasını göstərən xəritələrin şəkilləri verilib. Növbəti səhifələrdə isə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azəbaycan Respublikasına səfərinin tarixi haqqında məlumatla tanış oluruq. Məlumatdan sonra qardaş ölkələrin prezidentlərinin - Rəcəb Tayyib Ərdoğanın və İlham Əliyevin ölkələrinin bayraqlarının önündə şəkillərini görürük.

Kitabın növbəti səhifələrində oxuculara Türkiyə Prezidentinin Azərbaycana dövlət səfəri haqqında ətraflı məlumat verilib. Oxucu kitabı oxuduqca öyrənir ki, 13 iyun 2023-cü ildə Azərbaycana dövlət səfərinə gəlmiş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan rəsmi qarşılanmadan sonra Fəxri xiyabana gedərək Ümummilli Lider, müasir Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin və Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirələrini ehtiramla anmış, məzarları üzərinə tər güllər düzmüşdür.

Daha sonra kitabda sayın Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfərinə geniş yer ayrılır. Kitabı maraqla oxuyan hər kəs qardaş ölkənin dövlət başçısının ölkəmizə ikigünlük səfəri haqqında geniş məlumat alır. Topluda həmçinin Türkiyə Prezidentinin qarşılanmasını, keçirdiyi rəsmi görüşləri əks etdirən şəkillər də dərc olunub. Şəkillər kitabı daha da oxunaqlı edib.

Miniatür Kitab Muzeyinin xətti ilə "İndiqo" nəşriyyatında çapdan çıxmış kitabda materiallar həm Azərbaycan, həm də ingilis dillərində verilib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 3 dekabr (№264).- S.10.